**Sahib Raiq oğlu Rəhimli**

**UOT:330.1; JEL: L12; N21.**

# Klasterlərin iqtisadi əhəmiyyəti

***Xülasə***

*Məqalə bazar iqtisadiyyatı şəraitində istehsalatın ərazi təşkilinin xüsusi forması olan "klaster" kateqoriyasının iqtisadi əhəmiyyətinin təhlilinə həsr edilmiş, onların təkcə region deyil, bütövlükdə ölkə üçün əhəmiyyəti nəzərdən keçirilmişdir. Bu məqsədlə klaster anlayışının müəllif konsepsiyası verilmiş, klasterlər iqtisadiyyatın innovasiya inkişafı amili kimi nəzərdən keçirilir. Hazırda Azərbaycan iqtisadiyyatının qarşısında duran vacib vəzifə kimi sənayenin innovativ inkişafının təmin edilməsi baxımından ölkəmizdə klasterlərin inkişaf problemləri təhlil edilmişdir.*

***Açar sözlər:*** *klaster, innovasiya, rəqabətqabiliyyətlilik, davamlı iqtisadi inkişaf, biznes, bazar.*

## Giriş

Qloballaşma prosesləri və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası şəraitində regionların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələsi ön plana çıxır, çünki dünya bazarında mövqelərini qorumaq üçün effektiv vasitələrin olmaması artıq ölkənin daxilində böhranlı vəziyyətə səbəb ola bilir. Azərbaycan kimi orta gəlirli ölkələr üçün rəqabət qabiliyyətini artırmaq, yeni bazarlara çıxmaq və orta gəlir səviyyəsindən yüksəlmək üçün məhsuldar və insan qabiliyyətlərinə və yeni innovativ sənaye sahələrinə və texnologiyalara investisiya qoyuluşu prioritet istiqamətləri təşkil edir. Müasir iqtisadiyyatın yüksək rəqabət dinamikası müəssisələri rəqabət üstünlüyü mənbələri axtarışı məqsədilə innovasiya fəaliyyətlərinə cəlb edir. İnnovasiya, yeni dəyər yaratmaq üçün yeni imkanlar yaradır. Ənənəvi olaraq iqtisad elmində və praktikada müxtəlif innovasiya fəaliyyət prosesində texnoloji yeniliyə daha çox diqqət yetirilmişdir. Müasir şəraitdə iqtisadiyyatın inkişafında əsas amillərdən biri innovasiyalardır. İnnovasiya, bazara çıxarılan yeni və ya təkmilləşdirilmiş bir məhsul, praktikada istifadə olunan yeni və ya təkmilləşdirilmiş texnoloji proses və ya sosial xidmətlərə yeni yanaşma şəklində təcəssüm etdirilən yeniliyin son nəticəsidir.



## Müasir dövrdə klasterlərin təşkili xüsusiyyətləri

Müasir dövrdə ölkə iqtisadiyyatının innovasiyalı inkişafının əsas amilini klasterlər təşkil edir, ona görə ki, çünki onların tərkibində bütün zəruri elementlər var. Potensial və struktur baxımından klasterlər əsas vəzifənin həllinə kömək edəcək rəqabətli bazarların inkişafı yolu ilə Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin, iqtisadiyyatın müxtəlif sahələrinin innovativliyinin artırılması, iqtisadiyyatın inkişafının sürətləndirilməsi, kiçik və orta biznesin inkişafı, yerli təşəbbüslərin həvəsləndirilməsi və dövlət, biznes və elmi ictimaiyyət arasında qarşılıqlı əlaqənin gücləndirilməsi istiqamətində tədbirlər kompleksidir. Seçilmiş mövzunun aktuallığı sənaye sahələrində yerli məhsulun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə təsir göstərən bir sıra iqtisadi amillərlə bağlıdır. Klasterlərə dair ədəbiyyatın təhlili kifayət qədər diffuz mənzərə yaradır. Klasterlər haqqında vahid anlayış hələ ki, mövcud deyil. Bu termin kontekstdən və elmi perspektivdən asılı olaraq müxtəlif mənalarda istifadə olunur. Ümumiyyətlə klaster dedikdə, klaster təhlili nəticəsində obyektlər arasında oxşarlıq və ya fərqlər əsasında ayrılmış obyektlər qrupu başa düşülür. Bu zaman obyektlərin tərkibi, qarşılıqlı təsirləri, habelə tamla (klasterlə) hissələr (obyektlər) arasında qarşılıqlı

*©Sahib Raiq oğlu Rəhimli zərbaycan Respulikasının Prezidenti yanında Dövlət İdarəşilik Akademiyası, doktorant*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

əlaqələr rol oynayır. Klasterlər barəsində “tam hissələrin cəmindən böyükdür” fikrini (Aristotel) doğru hesab etmək olar [10]. Hər bir klaster subyektinin rəqabətqabiliyyəliliyinin yüksəlməsi bütövlükdə klasterin rəqabətqabiliyyəliliyinin yüksəlməsinə, klasterin rəqabətqabiliyyəliliyinin yüksəlməsi isə regionun və sahənin rəqabətqabiliyyəliliyinin yüksəlməsinə səbəb olur. Biz Aristotelin fikrini ona görə gətirdik ki, klasterlərdə sadəcə aqreqasiya deyil, həm də komponentlərin qarşılıqlı təsirləri mühüm rol oynayır, yəni bu qarşılıqlı təsirlərdən sinergiya effekti yaranır. Klasterlər bir dəbdir, yoxsa gələcək illərdə də iqtisadi mülahizələr üçün aktual olacaq real fenomendir? Klasterləri daha dərindən araşdırmağa dəyərmi? Əgər belədirsə, hansı istiqamətdə? Bu və buna bənzər suallar istər-istəməz klasterlər konsepsiyasının işlənib hazırlanmasına, eləcə də tədqiqatların aparılmasına səbəb olur.

**Klasterlərin nəzəri əsaslarına baxış**

Qeyd etmək lazımdır ki, 1990-cı illərdən başlayaraq, bu sahədə elmi diskussiyalar daha da intensivləşdir. Bir sıra elmlərdə, o cümlədən iqtisadiyyat, regional iqtisadiyyat, iqtisadi coğrafiya, sosial və siyasi elmlərdə yanaşmalar, təsir amilləri, bəyan edilən və ölçülə bilən effektlərinə dair müxtəlif fikirlər ortaya çıxdı [5, s.21], lakin onların heç biri yeganə həqiqət olmaq iddiasında ola bilməz. Əksinə, müxtəlif yanaşmalar bu mürəkkəb hadisəinin müxtəlif aspektlərinə toxunur. Həmin dövrdə M.Porter tərəfindən rəqabətqabiliyyətliliyi yüksəltmək məqsədilə aqlomerasiya olunmuş, regional özəl və ictimai təşkilatların intensiv, dəyər yönümlü əməkdaşlığı ruhunda təbliğ edilən regional klasterlər konsepsiyası dünyada geniş yayılmışdır. Klaster yanaşmasının banisi kimi M.Porter klasteri “müəyyən ərazidə fəaliyyət göstərən, rəqabət aparan, fəaliyyət ortaqlığı ilə səciyyələnən, bir-birini qarşılıqlı şəkildə tamamlayan coğrafi baxımdan qonşu olan və bir-biri ilə qarşılıqlı bağlı olan şirkətlər (istehsalçılar, təchizatçılar və s.) və onların fəaliyyəti ilə bağlı olan təşkilatlar qrupu (təhsil müəssisələri, dövlət orqanları, infrastrukturu inkişaf etdirən şirkətlər)” kimi müəyyən edir [4]. Regional klasterlər mövzusu olduqca aktual olduğundan, bu gün dünyada klasterlə bağlı məsələlərlə məşğul olan saysız-hesabsız mütəxəssis və təşkilatlar var.



Klasterlərin birbaşa və dolayı effektlərini sübut etməkdə çətinliklər olduğuna görə, klasterlərin əhəmiyyəti dəfələrlə inkar edilmiş və ya ən azından ciddi şəkildə şübhə altına alınmışdır. Bəlkə də klaster ideyasının tənqidinə görə, bəlkə də başqa səbəbdən, klasterlərin tərəfdarları M.Porterin konsepsiyanı cilalamağa çalışırlar. Bu mənada Martin/Sunley tərəfindən çox istinad edilən konstruktiv tənqid klaster ideyasını inkişaf etdirmək üçün çox dəyərlidir [6]. Klasterlərin tərəfdarlarının və klasterlərin əlehdarlarının olması ondan xəbər verir ki, klaster fenomeni mövcuddur və o, bəzi yerlərdə işləyir, bəzi yerlərdə isə işləmir. Bundan başqa, bu, klasterlərin əslində nə olduğu və hansı daxili və xarici şəraitin, qarşılıqlı əlaqələrin klasterlərin inkişafına təsir göstərdiyini daha təkidlə və sistemli şəkildə araşdırmağa həvəsləndirir. Klaster yanaşması sənaye-rayon yanaşmasından istifadə etməklə aqlomerasiya tədqiqatları, rəqabət nəzəriyyəsi, çevik ixtisaslaşma yanaşması, industrial atmosfer və yaradıcı mühit ideyası, qloballaşmanın biznesin strategiyası və təşkilinə təsirinin tədqiqi, habelə bazar və marketinq proqramlarının standartlaşdırılması və differensiasiyası məsələləri kimi müxtəlif tədqiqat istiqamətlərinə söykənir. Qeyd edildiyi kimi, klasterlərə dair vahid fikir yoxdur, lakin müxtəlif nöqteyi-nəzərlər M.Porterin ilkin tərifinə əlavələrdən başqa bir şey deyil. Klasterlərin çoxlu sayda təriflərini nəzərə alan müəllif M.Porterin ideyalarına əsaslanaraq bu məqalədə klasterləri heterarxik şəkildə əlaqəli olan ayrı-ayrı aktorlar, təşkilatlar və təşkilati qrupları və ya şəbəkələri olan, regional lövbərli, fərdi təşkilati strukturlardan və hədəflərdən təsirlənən mürəkkəb adaptiv (sosial) sistemlər kimi başa düşür. Klasterlər konkret strukturu, qarşılıqlı asılılığı və nəticə etibarı ilə təhlil səviyyələrinə və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

idarə edilməsinə yanaşmalara çoxşaxəli və çoxölçülü tələblər irəli sürülən təşkilati sistemlərdir.

Klasterlərin inkişafı strateji, uzunmüddətli məsələdir. 2002-ci ildə M.Porter qeyd etmişdir ki, klasterin işlənməsi ən azı 20 il aparır [8, s.22]. Sənayedə biznesin təşkilinin digər formaları arasında klasterlərin üstünlükləri iqtisadi haqqında fikirlər çoxdan yaranmışdır. Lakin ən mötəbər mənbə A.Marşallın iqtisadi aqlomerasiya konsepsiyası hesab olunur. A.Marşall klasterləri lokallaşdırılmış sənaye (localized industry) adlandırırdı [3]. Bu, çox vaxt klasterin sinonimi kimi istifadə olunan ən məşhur və bəlkə də məna baxımından ən yaxın anlayışdır. A. Marşall "İqtisad elminin prinsipləri" adlı kitabında ilk dəfə firmaların məhsuldarlığının və onların fəaliyyətinin nəticələrinin bilavasitə onların yerləşdiyi yerdən və iqtisadi subyektlərinin coğrafi yaxınlığından asılı olduğunu empirik şəkildə sübut etmişdir. Kiçik müəssisələrin aqlomerasiyasının davamlılığını izah etmək üçün iqtisadçı xarici qənaətlər və ya eksternalilər, yəni müəssisələrin coğrafi təmərküzləşməsindən əldə edilən aşağıdakı müsbət effektlər anlayışını daxil etdi: bilik və innovasiya mübadiləsindən əldə edilən effekt, əmək resurslarından birgə istifadədən əldə edilən effekt, tədarükçülərə sərbəst çıxış imkanının olmasından əldə edilən effekt ("satıcı -alıcı" zənciri). Klasterlər rəqabət üstünlüklərini yaratmaq üçün yüksək potensial təmin edir. Bir sıra müsbət tərəfləri hətta dövlətin və ya digər aktorların müdaxiləsi olmadan "passiv" deyilən üstünlüklər [9] sayəsində yaranır. Məsələn, müəyyən məhsul istehsalçısının çox olduğu bir bölgədə ixtisaslı və təcrübəli işçi qüvvəsini tapmaq nisbətən asan olur. Qabaqcıl məhsul və maşınları əldə etmək də asandır. Hətta satışlar başqa yerlərə nisbətən daha asan başa gəlir, çünki alıcılar seçimin miqyasını bildikləri üçün bölgəyə gəlirlər. Şirkətlər arasında sıx əməkdaşlıq da adi hala çevrilir ki, buna da misal olaraq İtaliyanın sənaye rayonlarını göstərmək olar. Məlum olduğu kimi, klasterlərin italyan modeli kiçik, orta və iri biznesin çevik və bərabərhüquqlu əməkdaşlığını nümayiş etdirir. Əməkdaşlıq həm dəyər yaratma zənciri üzrə, həm də üfüqi xarakterli ola bilir.

Klasterlərin iqtisadi əhəmiyyəti, birincisi, onunla bağlıdır ki, bu, innovasiyaların istehsal prosesinə daha səmərəli tətbiqidir. Klasterə birləşmiş müəsissələr yenilikçi müəsissənin ideya və ya texnologiyasını daha tez qəbul edəcək, müvafiq olaraq onu son istehlakçıya da tez çatdıracaq. Elmi, təhsil və istehsal potensialının birləşdirilməsi iqtisadiyyatın inkişafına multiplikativ təsir göstərir, bu isə investisiyaların cəlb edilməsinə və yeni iş yerlərinin yaradılmasına səbəb olur. İkincisi, klasterlər ayrı-ayrı istehsal mərhələləri arasında baş verən itkilərin azalmasına səbəb olur. Üçüncüsü, klasterlər bazar haqqında informasiyanın qıtlığı üzündən baş verən itkilərin azalmasına səbəb olur. Klasterlər ən azı öz üzvləri üçün informasiyanın açıqlığını nəzərdə tutduğundan, ayrıca götürülmüş bir müəsissə öz tərəfdaşlarının etibarlılığı, onların maliyyə durumu, təklif etdikləri məhsul və xidmətlərin keyfiyyəti barədə məlumatlı olur. Bir sözlə, klasterlər bazardakı situasiyanı daha geniş təsvir edir. Aktorların bir-biri ilə təcrid olunması onları zəruri informasiyadan məhrum edirsə, klasterlərdə klaster iştirakçıları arasında daima müxtəlif növ informasiyanın mübadiləsi gedir. Çoxlu rəqiblərlə təmasda olan tədarükçülərin və ya istehlakçıların kanalları vasitəsilə sərbəst informasiya mübadiləsi baş verdiyindən, yeniliklər sürətlə yayılır. Klasterlərin dördüncü üstünlüyünü istehsal miqyası effekti adlandırmaq olar. Bunun əsasını klasterin firmalarından birinin timsalında innovativ aktivliyin nüvəsinin olması təşkil edir. Çox vaxt klasterin mərkəzini bir neçə güclü şirkət təşkil edir, eyni zamanda onlar arasında rəqabət münasibətləri də davam edir. Buna görə də gələcəkdə inkişafın nüvəsi olacaq və innovativ transformasiyalar aparılacaq sahələrin seçilməsi böyük əhəmiyyət kəsb edir. Klasterlərə xas olan beşinci üstünlük əhatə effektidir. Ümumi halda, o, bir neçə növ məhsul əldə etmək üçün eyni vaxtda istifadə edilə bilən istehsal amili olduqda,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yaranır. Klasterdə əhatə effekti xeyli güclənir, çünki belə çoxfunksiyalı amildən ən müxtəlif müəssisələrdə istifadə etmək mümkün olur, eyni zamanda onun ötürülməsi ilə bağlı transaksiya xərcləri də minimal olur.

Klasterlərin daha bir iqtisadi əhəmiyyət onunla bağlıdır ki, geniş əlaqələri hesabına klasterlər birliyə daxil olmayan başqa müəsissələr və istehsal sahələri tərəfindən innovasiyaların tətbiqinin təşəbbüskarı kimi çıxış edirlər. Bu mənada klasterlər bütövlükdə regionun və ölkənin iqtisadiyyatının inkişafına səbəb olur. Klaster yanaşması biliklərin birləşdirilməsinin yeni formalarının yaradılmasına, yeni elmi-texniki sahələrin və onların kommersiya tətbiqlərinin həvəsləndirilməsinə, eləcə də dolayı yolla təhsil, universitet elminə, ali təhsil sisteminin inkişafına dəstəkdir. Klasterlərin üstünlükləri ixtisaslaşdırılmış aktivlərə, xüsusən də müəyyən səbəblərə görə şirkətin təkbaşına istehsal edə bilmədiyi bilik və bacarıqlara çıxışa ehtiyacı olan yeni yüksək texnologiyalı firmalarda daha qabarıq şəkildə özünü büruzə verir. Lakin sahibkarlıq nöqteyi-nəzərdən əməkdaşlıqla bağlı müxtəlif risklər də yarana bilir. Bu risklərə, əməliyyat sirrlərinin açılması aid edilə bilər, çünki əməliyyatların məxfiliyi nadir hallarda uzunmüddətli olur. Bunlar birbaşa rəqiblərin bir araya gətiriləcəyi təqdirdə şirkətlərin kooperativ fəaliyyətinə son qoyması üçün vacib motivlərdir [7].

**Azərbaycanda klasterlərin inkişafı**

Ölkəmizdə də iqtisadiyyatda klasterlərə böyük siyasi maraq göstərilməsi təsadüfi deyil. Hazırda Azərbaycan iqtisadiyyatının qarşısında duran vacib vəzifə sənayenin innovativ inkişafının təmin edilməsi, modernləşdirilməsi, səmərəlilik səviyyəsinin artırılması və istehsal keyfiyyətini inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaqdır. Hazırda bu istiqamətdə müvafiq tədbirlər, o cümlədən klaster fəaliyyətinin institusional və metodoloji əsaslarının yaradılması istiqamətində ilk sistemli işlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Iqtisadi Islahatlar Elmi Tədqiqat Institutu tərəfindən 2017-ci ildə "Sənaye klasterlərinin yaradılması metodologiyası" işlənib hazırlanmışdır. Klasterlərin formalaşması sənayedə yeni iş yerlərinin açılması, qeyri-neft sektorunda sənaye istehsalının genişləndirilməsi, sənaye ilə əlaqəli xidmətlərin inkişafı, bu sənayedə kiçik və orta sahibkarlığın dəstəklənməsi, sənaye infrastrukturunun və sosial-iqtisadi inkişafın bölgələrin inkişafı baxımından vacib hesab olunduğundan, bölgələrin daxili potensialı və təcrübəsi nəzərə alınaraq hər bir bölgə üçün spesifik klasterlər yaratmaq, daxili və xarici bazarlara yeni məhsul və xidmətlər təqdim etmək və qeyri-neft sektorunda istehsal və ixracın artırılması üçün mühüm tədbirlər görülməsi, klasterlərin lahiyələndirilməsində ölkənin və regionun rəqabət üstünlüklərindən istifadə edilməsi, bu sahədə qabaqcıl beynəlxalq təcrübələrin nəzərə alınması və yaradılacaq klasterlərdən qlobal istehsal-satış şəbəkəsinə çıxış vasitəsi kimi istifadə edilməsi əsas prioritetlərdəndir. Qeyd etmək lazımdır ki, ölkəmizin tarixinin "sovet dövrü" üçün səciyyəvi olan inzibati-amiranə iqtisadiyyatı regionların sahə ixtisaslaşmasında müəyyən iz buraxmışdır. Onların bir çoxunda sənaye sahələrinin inkişafı ərazinin təbii rəqabət üstünlükləri (məsələn, təbii sərvətləri, satış bazarlarına çıxış, nəqliyyat infrastrukturlarının inkişafı), təşəkkül tapmış ənənələri, lazımi ixtisaslara malik olan kadrların mövcudluğu hesabına deyil, "yuxarıdan", süni olaraq hakimiyyət orqanları tərəfindən zərurət hesabına baş verirdi. Azərbaycan iqtisadiyyatında klasterlərin yaradılmasına və fəaliyyətinə mənfi təsir göstərən amillərə aşağıdakıları aid etmək olar:

- kiçik biznesin, infrastruktur və təşkilati şəraitin nisbətən zəif inkişaf etməsi;
- qarşılıqlı münasibətlər mədəniyyətinin, etibar səviyyəsinin aşağı olması;
- müəssisədə, xüsusən də texnoloji istehsal zənciri çərçivəsində bir-biri ilə əlaqəli olan müəsissələr arasında ümumi iqtisadi marağın olmaması;
- klaster strukturuna daxil olan müəssisələrin regional hakimiyyət orqanları tərəfindən kifayət qədər dəstəyinin olmaması;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- -elmi-tədqiqat institutları, universitetlər və sənaye müəssisələri arasında əlaqələrin davamlı olmaması;
- -informasiya açıqlığının olmaması ki, bu da klasterin potensial iştirakçıları arasında etimadsızlığa səbəb olur və qeyri-vicdanlı rəqabətin formalaşmasına gətirib çıxarır.

Buna görə də Azərbaycanda sənayenin klasterləşdirilməsi potensialının reallaşdırılması prosesində dövlət dəstəkləmə sistemi və stimullaşdırılma mexanizmləri indiki mərhələdə xüsusilə həlledici rola malikdir. Azərbaycanda sənayenin klasterləşdirilməsi potensialının əhəmiyyətli hərəkətverici qüvvəsi kiçik və orta sahibkarlıq subyektlərinin biznes imkanları və səriştələrinin yüksəldilməsidir. Azərbaycanda KOM inkişafı ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin əsas amillərindən biri hesab olunur. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılıb. Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilib. KOBİA kiçik və orta biznes sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, bu sahədə əlaqələrin qurulması və inkişaf etdirilməsi məqsədilə beynəlxalq əlaqələrini genişləndirməkdəddir. Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə kiçik və orta biznesin iqtisadi inkişafda rolunun, məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi, KOB subyektlərinin maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, gündəlik istehlak malları ilə təminatın əsasən KOB subyektləri vasitəsilə həyata keçirilməsi, KOB-ların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi strateji hədəflər kimi müəyyən edilmişdir. Qarşıya qoyulmuş əsas vəzifələr və fəaliyyət istiqamətləri baxımından ilkin həlledici istiqamət motivasiya tədbirləri ilə bağlı olacaq. Bunu əsasən kiçik və orta biznes subyektlərinin fəaliyyətini stimullaşdıran mexanizmlər vasitəsilə həyata keçirmək məqsədəuyğundur. Çünki, burada bir sıra məsələlərin qarşılıqlı əlaqəsi var və onların əlaqə mexanizmində səmərəli ardıcıllılıq mühümdür. Öz növbəsində həm mövcud olan biznes subyektlərinin inkişafı gələcək klasterdə həm də yeni biznes subyektlərinin yaranması formatında təmin edilməlidir. Nəticə etibarı ilə yeni ideyaların biznesə inteqrasiya olunmasına təkan verə bilər. Kiçik və orta müəssisələrin inkişafına və qlobal dəyər zəncirlərində iştirakına dəstək vasitəsi kimi birbaşa xarici investisiyaları artırmaq üçün Azərbaycana onun iqtisadiyyatını şaxələndirməyə, onu qlobal və regional istehsal şəbəkələri ilə əlaqələndirməyə kömək edən birbaşa xarici investisiyaları cəlb etmək zəruridir. Bu, istehsal fəaliyyətlərinə və istehsalla bağlı xidmətlərə xarici investisiyaların cəlb edilməsi deməkdir [1, c.23].

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) fəaliyyəti haqqında informasiya mənbələrində qeyd edildiyi kimi, beynəlxalq təcrübə göstərir ki, kiçik və orta sahibkarlara göstərilən xidmətlərin "bir məkan" prinsipi üzrə təşkili müsbət nəticələr verməklə yanaşı, eyni zamanda həmin xidmətlərin keyfiyyətinin təmin olunmasında mühüm rol oynayır. Məhz bu amilləri nəzərə alaraq, Agentliyin nəzdində ölkənin rayon və şəhərlərində Kiçik və Orta Biznes evlərinin yaradılması planlaşdırılır. Bu evlərin yaradılmasında əsas məqsəd sahibkar məmnunluğunu təmin etməklə yanaşı, göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun həyata keçirilməsinə nail olmaqdır" [2]. Bu baxımdan ölkəmizdə sahibkarlıq fəaliyyətinin imkanlarının artırılması və institutlaşması baxımından bir sıra əsas yeniliklərin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır:

- ✓ sahibkarlığın inkişafı siyasətinin əlaqələndirilməsi;
- ✓ KOB evlərində sahibkarlıq subyektlərinə xidmətlərin təşkili və operativliyin təmin olunması məqsədilə bu xidmətləri göstərən dövlət orqanları və təşkilatların səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Qrupunun yaradılması;
- ✓ "G2B" (dövlət–biznes) xidmətlərin elektron reyestrinin yaradılması.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkəmiz klaster inkişafının köməyi ilə dünyanın öndə gedən rəqabətqabiliyyətli ölkələri sırasına daxil olmalıdır. Eyni zamanda dünya alimlərinin baxışlarının müxtəlifliyini və dünya ölkələrinin sənaye klasteri qruplarının formalaşması və inkişafı təcrübəsinin rəngarəngliyi ölkəmizin sənayesinin klaster yanaşmasına əsaslanan inkişaf strategiya və proqramlarının işlənib hazırlanmasında nəzərə alınmalıdır. Bundan başqa, həm daxili amillərin, həm də xarici qlobal çağırışların təsiri altında klasterin səmərəli fəaliyyətini təmin edən klasterləri idarəetmə üzrə təşkilati strukturların formalaşdırılması və onların təşkilati-hüquqi təsərüfatçılıq formalarının əsaslandırılmasına dair təkliflərin işlənib hazırlanması baxımından tədqiqatların aparılmasına ehtiyac var. Azərbaycanın iqtisadi cəhətdən fəal ixtisaslı iş qüvvəsinin yüksək intellektual potensialı, ölkənin geosiyasi mövqeyinin xüsusiyyətləri innovativ texnologiyalardan istifadə etməyə yönəlmiş uğurlu regional siyasət üçün unikal şərtlərdir. İnnovasiyaların sürətlə həyata keçirilməsinin strateji istiqaməti, bu araşdırmada göründüyü kimi, klaster siyasətidir . Bu siyasət bütün səviyyələrdə klasterlərin inkişafı üçün həyata keçirilən tədbirlərdir. Klaster siyasətinin başlıca məqsədləri sənaye istehsalının rəqabət qabiliyyətinin və innovativ potensialının artırılması, kiçik və orta sahibkarlığın inkişafıdır. Klaster bazar mexanizmini mümkün qədər nəzərə alır. Bu mənada o, yalnız aşağıdan gələn təşəbbüslə yaradıldıqda, müəssisələrin özləri rəqabət qabiliyyətini artırmaq üçün klasterdə birləşmək qənaətinə gəldikdə, səmərəli ola bilər. Azərbaycanda klasterlərin yaxşı perspektivləri var. Çoxlu sayda elmi-tədqiqat mərkəzləri, kiçik və orta sahibkarlığın inkişafı, dövlət dəstəyi proqramları və təbii ki, ölkəmizin böyük intellektual potensialı onu deməyə əsas verir ki, onların sayı daha da artacaq. Artıq bu gün ən çiçəklənən regionlarda ayrı-ayrı sənaye sahələrində klasterlərin yaradılması ilə bağlı çoxlu sayda layihələr həyata keçirilir.



**Nəticə**

Tədqiqatlar nəticəsində bu kimi nəticələr çıxarmaq olar. Bütövlükdə klasterləri sahibkarların yeni kooperasiya təvəkkürü hesab etmək olar. Hazırda klasterlər ölkə iqtisadiyyatının innovasiyalı inkişafının əsas amilinə çevrilmişdir, ona görə ki, bunun üçün onların tərkibində bütün zəruri elementlər var. Bunlar ali məkətblər və ya elmi-tədqiqat yönümlü mərkəzlər, rəqabətqabiliyyətli müəsissələr, maliyyə institutları və pul ehtiyatları vasitəsilə yeni texnologiyaların işlənməsini və tətbiqini təmin edən investor firmalarıdır. Bütövlükdə klasterlər rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün təşkilatdaxili əməkdaşlıq forması kimi özünü doğrultmuşdur. Klasterlərin formalaşması və inkişafı regionun rəqabətqabiliyyətlilik səviyyəsini əhəmiyyətli dərəcədə artıracaq, eyni zamanda təkcə regionda deyil, bütövlükdə ölkədə sosial-iqtisadi vəziyyəti yaxşılaşdıracaqdır.

## Ədəbiyyat

1.Azərbaycan Yerli Təchizatçılar və Xarici İnvestorlar Arasında Əlaqələrin Gücləndirilməsi, https://www.oecd.org/eurasia/competitiveness-programme/eastern-partners/Azerbaijan-Linking-Domestic-Suppliers-with-Foreign-Investors-AZE.pdf , s.23

2. Orxan Məmmədov: Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətini təmin etmək üçün bir sıra yeni mexanizmlər yaradılacaq, 11 İyul 2018, https://az.trend.az/business/economy/2927845.html

3.Маршалл А. Принципы экономической науки. Т. 3. М.: Прогресс, 1993. 351 с.

4. Портер М. Конкуренция. М.: Изд. дом «Вильямс», 2005. 495 с.

5. Carbonara, Nunzia; Giannoccaro, Ilaria; McKelvey, Bill (2010): Making Geographical Clusters More Successful: Complexity-Based Policies. In: E:CO 12 (3), S. 21–45., Kiese 2008, S. 14) Kiese, Matthias; Schätzl, Ludwig (Hg.) (2008):

6 Martin, Ron; Sunley, Peter (2003): Deconstructing clusters: chaotic concept or policy panacea? In: Journal of Economic Geography 3 (1), S. 5–35.

7.Meyer-Stamer, J. (1999 A) Strategien lokaler/regionaler Entwicklung: Cluster, Standortpolitik und systemische Wettbewerbsfähigkeit. Projekt Meso-NRW. INEF Report. Institut für Entwicklung und

Frieden, Universität Duisburg und Fundacao Empreender, Joinville, Brasilien. (http://www.meyer-stamer.de/1999/nsa.pdf).
8. McKinsey (2002): McK Wissen 01. Cluster. brand eins Wissen 1 (01). Hamburg: brand eins Verlag GmbH & Co. oHG; brand eins Wissen GmbH & Co.KG, McKinsey &. Company (Hg.)
9. Nadvi, K. (1997). The Cutting Edge: Collective Efficiency and International Competitiveness in Pakistan. Brighton: Institute of Development Studies. Discussion Paper 360. NCC Cultur Concept GmbH (1998)
10. Porter, Michael E. (1991a): Nationale Wettbewerbsvorteile. Erfolgreich konkurrieren auf dem Weltmarkt. München: Droemer Knaur(vgl. Porter 1991, s. 175)

***Сахиб Раиг оглы Рагимли***

***Экономическое значение кластеров***

***Резюме***

*Статья посвящена анализу экономического значения категории “кластер”, особой формы территориальной организации производства в условиях рыночной экономики, рассмотрено их значение не только для региона, но и для страны в целом. С этой целью было дано авторское понимание понятия кластер, кластеры рассматриваются как фактор инновационного развития экономики. Проанализированы проблемы развития кластеров в нашей стране с точки зрения обеспечения инновационного развития промышленности как важной задачи, стоящей в настоящее время перед экономикой Азербайджана.*

***Ключевые слова:*** *кластер, инновации, конкурентоспособность, устойчивое экономическое развитие, бизнес, рынок.*



***Sahib Raig Rahimli***

***Economic significance of clusters***

***Summary***

*The article is devoted to the analysis of the economic significance of the category “cluster”, which is a special form of territorial organization of production in a market economy, and its significance not only for the region, but also for the country as a whole is considered. For this purpose, the author's concept of the concept of cluster is given, clusters are considered as a factor in the innovative development of the economy. At present, the problems of development of clusters in our country were analyzed in terms of ensuring innovative development of industry as an important task facing Azerbaijan economy.*

***Keywords:*** *cluster, innovation, competitiveness, sustainable economic development, business, market.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 03.08.2021.***
***Çapa qəbul olunub: 10.08.2021.***

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*